UOT 1(09)

RƏBİYYƏT ASLANOVA
Bakı Dövlət Universiteti,
Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası
Fəlsəfə elmləri doktoru, professor
TarixVeOnunProblemleri@gmail.com

ƏHMƏD YÜKNƏKİNİN ƏDƏBİ-FƏLSƏFİ İRSİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/33-43

Türk-islam mədəniyyətinin qiymətli ədəbi əsərləri ilə zənginləşdirən alimlər içərisində Əhməd Yüknəkinin xüsusi yeri var. Onun zəngin irsi islamiyyət sonrası mərhələdə Orta Asiya xalqlarının ədəbi-fəlsəfi düşüncəsində mühüm yer tutur. Əhməd Yüknəkinin mənəvi dünyasına, islam əxlaqının əqidələrə hakim olması yolundakı xidmətlərinə, öz tərzi-hərəkətləri və düşüncələri ilə insanlara örnək olmaq istedadına yüksək qiymət verən müasirlərinin onun "Ədib" adı ilə mükafatlandırması bu mütəfəkkirin adının tarixdə əbədiləşdirilməsini təmin etmişdir. Müəllifin məqsədi insanlara islam əxlaqının gözəlliyini, saf mənəviyyatın təbliğini, kamil insan tərbiyəsini önəmini çatdırmaqdır. Əhməd Yüknəkinin öz əsərinə "Hibatül-Həqayik" (Həqiqətlərin Hədiyyəsi) adının verilməsi təsadüf sayıla bilməz. Zəka sahibi olan insanın həqiqət axtarışlarının sonunda əldə etdikləri biliklər gerçək bir hədiyyədir. Öz ictimai-fəlsəfi baxışlarında Əhməd Yüknəki insanların həyatında elmin, biliyin rolunu xüsusi dəyərləndirmişdir.

Açar sözlər: Türk-islam mədəniyyəti, Hibatü'l Hakayik, ədəb-əl din və ədəb-əl dünya prinsipi, islam əxlaqi dəyərləri, fəsləfi-etik görüşlər.

Giriş. Orta əsrlərdə türk-islam mədəniyyətini qiymətli ədəbi-fəlsəfi əsərlərlə zənginləşdirən, türk xalqlarının əbədiyyət qazanmış parlaq simalarından olan Yusif Has Hacib Balasaqunlu, Mahmud Qaşqarlı, Əhməd Yəsəvi ilə yanaşı Əhməd ibn Mahmud Yüknəkinin də adı və zəngin irsi islamiyyət sonrası mərhələdə Orta Asiya xalqlarının ədəbi-fəlsəfi düşüncə tarixində mühüm yer tutur. Bu mütəfəkkirlərin hər biri Şərqi və Qərbi Türküstanda ilk türk-müsəlman dövləti olan Qaraxanlı hakimiyyəti illərində yaşayıb yaratmışlar.

Uzun əsrlər boyu Türk xalqlarının dövlətçilik ənənələrinin bir-birinə ötürülərək fasiləsizliyin təmin olunmasında mühüm rol oynamış Hunlar, Göytürklər, Uyğurlardan sonra IX-XIII əsrlərdə Qaraxanlı dövləti tarix səhnəsinə daxil oldu. Tarixçilərin bu dövlətin yaranması, inkişafı və süqutuna olan marağı bəhs edilən dövrdə Şərqi Türküstanda türk xalqları içərisində yaşanılan iqtisadi-siyasi, sosial, mədəni, etnik, dini dəyişikliklərin xarakterini anlamaq ehtiyacından irəli gəlir. Mövcud olduğu bir neçə əsr ərzində (840-1212) Qaraxanlılar dövləti qüdrətli, inkişaf etmiş, bölgədə nüfuz sahibi olan feodal-despotik idarəçilik sisteminə malik dövlətə çevrildi. IX əsrdən başlayaraq yaşanılan proseslər - köçəri həyat tərzi yaşayan türk boylarının tədricən oturaq həyata keçməsi, ölkədə yeni ictimai-iqtisadi münasibətlərin bərqərar olması üçün zəmin yaradırdı. Feodal münasibətlərinin təbiətindən doğan tələblərə əsasən yeni idarəçilik qaydalarının, ticarət-maliyyə ənənələrinin, vergi, ordu, torpaq siyasətinin formalaşması, dövlətin hüquqi əsaslarının müdafiəçisinə çevrilən islam dininin rəsmi din olaraq qəbul edilməsi Qaraxanlılar dövlətini digər türk dövlətlərindən fərqləndirən cəhət idi. Qaraxanlı dövləti paytaxtı Balasaqun olmaqla geniş bir ərazini - Şərqi Türküstanda Yeddisu vadisindən Cənubi Tyan-Şana qədər olan torpaqları əhatə edirdi. Etnik tərkibi çigil, yağma, karluk, oğuz, uyğur, uysun boylarından ibarət olan bu dövlətin islam mənbələrində "Əl-Xəqaniyyə", "Mülkümül-Xəqaniyyə" ismi ilə adlandırırdılar. 1874-cü ildə rus şərqşünası V.V.Qriorgievin (1816-1881) "Qaraxanlılar Mavərənnəhrdə" adlı əsərində bu dövlət Qaraxanlılar dövləti adlandırıldıqdan sonra tarixi ədəbiyyata bu adla daxil oldu. İlk hökmdarı Bilge Kül Qədir xan olan bu dövləti yaradan sülalənin hansı türk boyuna aid olduğuna dair yeddi fərqli fərziyyə mövcuddur. Bunlar içərisində uyğur, yağma, çigil,türkmən, qarluq, tikyu-göktürk və s. fərziyyələr mövcuddur. Tarixi ədəbiyyatda Qaraxanlılar sülaləsinin uyğur türklərinin yağma qoluna aid olması fikri üstünlük təşkil etdiyindən Qaraxanlılar dövləti uyğur dövləti kimi dəyərləndirilir [8, s.36-

37, 125-127]. Qaraxanlı hökmdarı Satuk Buğra xanın islamı qəbul etməsi, daha sonra onun oğlu Musa Tonqa İlikin dövründə(960-cı il) iki yüz min çadırlıq türk topluluğunun müsəlman olduğunu bildirməsi ilə dövlətin siyasi, dini, mədəni həyatında yeni bir mərhələ başlandı [9, s.81]. Qaraxanlılar dövlətində islamın qəbulu qısa müddətli missionerlik fəaliyyətinin nəticəsi deyil, əksinə iqtisadi və siyasi maraqlar əsasında islamın türk mühitinə tədricən nüfuz etməsi idi. Satuk Buğra xan əmisi ilə apardığı davamlı müharibədə yeni dini qəbul etməklə Samanilərin yardımını əldə etmiş oldu. Satuk Buğra xanın oğlu Musa isə İslam dinini müdafiə və kafirlərlə mübarizə şüarı altında həyata keçirdiyi hərbi ekspansiyada Xoton və İsficabda uğurlar əldə etdi [12, s.137-138].

İslam dininin mədəniyyətə təsiri. IX əsrdən başlayaraq türk xalqları içərisində islam dininin yayılması ilə dini etiqad sisteminin, həyat və düşüncə tərzinin getdikcə dəyişilməsi, mədəniyyətin yeni mərhələyə qədəm qoyması, X-XI əsrlərdə islam düşüncə tərzinə uyğun əsərlərin meydana çıxması prosesi başlandı. Ərəb və fars mədəniyyətinin, ədəbi ənənələrinin təsiri altında şifahi xalq ədəbiyyatının nümunələri – miflər, dastanlar yazıya köçürülür, ədəbi əsərlərin məzmun və mahiyyəti dəyişir, zənginləşirdi. Türklərin İslam öncəsi əsərlərinin islamlaşdırılmağa başlaması, "Oğuz xan" dastanının, "Manas" eposunun da bu prosesə məruz qalmasının bariz nümunəsi idi.

Qaraxanlı hökmdarları mədəniyyətin himayəçisi kimi çıxış edirdilər. Formalaşan türk-islam mədəniyyəti sosial-siyasi, mədəni sahələrdə bütün proseslərə öz korrektivini etməyə başladı. Dövlət idarəçiliyində müsəlman hüququnu mükəmməl bilən,şəriət normalarının sosial-iqtisadi münasibətlərin tənzimlənməsinə nəzarəti gerçəkləşdirən mütəxəssislərin yetişdirilməsi, ərəb dilinin,ərəb əlifbasının geniş yayılmasının təmin edilməsi məqsədilə ölkənin bütün şəhərlərində mədrəsələr qurulur, xanəgahlar, kitabxanalar tikilirdi. Türk dövlətlərində mədrəsələrin ilk nümunələri Qaraxanlılar dövlətinə aiddir. Buxarada, Balasaqunda, Nişapurda, Qəznədə, Səmərqənddə, Qaşqarda yaradılan mədrəsələr elmin, mədəniyyətin, təhsilin inkişafı üçün geniş imkanlar açan mərkəzə çevrilirdi. 1066-cı ildə Səmərqənddə Tamğaç xan İbrahim tərəfindən tikilən mədrəsədə dövrün görkəmli alimlərinin çalışması, bu təhsil ocağının kitabxanasında çoxsaylı qiymətli kitabların, əlyazmaların toplanması, təhsilin, elmin inkişafına nə qədər önəm verildiyini sübut edirdi. Özünəməxsus tədris sisteminə malik, öz binası, yataqxanası, kitabxanası olan, tələbələrə təhsil haqqı ödəyən mədrəsələrin sayı günü-gündən artır, yüksək elmi biliklərə, ərəb dilinə və ərəb əlifbasına yiyələnmiş gənclərin formalaşması prosesi sürətlənirdi. IX əsrdən başlayaraq təşəkkül tapan mədəni-intellektual mühit görkəmli elm adamları, din xadimləri, sənətkarlar, memarlar kimi zümrələrin yaranmasını təmin edirdi. IX-XIII əsrlərdə qiymətli əsərləri ilə məşhurlaşmış alimlərin böyük əksəriyyəti Qaraxanlı dövlətində yaşamış və bu mədəni-intellektual mühitdə özlərini təsdiq etmişlər. X-XII əsrləri əslində türk xalqlarının sosial-iqtisadi, mədəni inkişaf tarixində bir keçid mərhələsi kimi dəyərləndirmək olar.

İslamiyyət öncəsi və islamiyyətdən sonrakı dövrdə mədəniyyətlərin bir arada mövcudluğu özünü daha çox elm, mədəniyyət, ilahiyyat sahəsində büruzə verirdi. Bu dövrün qiymətli elmi əsərlərinin, traktatlarının, uyğur, ərəb-uyğur, ərəb dilində yazılması, hər iki əlifbanın bərabər hüquqlu tərəflər kimi öz varlığını qoruyub saxlaması, türk mütəfəkkirlərinin tarixi ənənələrə sadiq qalaraq türk düşüncəsini öz əsərlərində əks etdirməsi bu dövrün xarakterik xüsusiyyəti idi. Yusif Balasaqunlunun "Qutadqu-Bilik" əsəri uyğur dilində, Mahmud Qaşqarinin "Divanü lüğat-it-Türk" əsəri çağatay dilində yazılmış, Quranın uyğur dilinə tərcüməsi gerçəkləşmişdi. Şərq mütəfəkkirlərinin fəlsəfi-etik düşüncələrindən bəhrələnərək qiymətli nəsihətnamə əsəri olan "Hibatü'l-Həkayik" (Həqiqətin hədiyyəsi) əsərini Əhməd Yüknəki uyğur dilində yazmışdı.

Əhməd Yüknəkinin həyat və yaradıcılığı. Tale belə gətirmişdir ki, XI-XII əsrin məşhur alimlərindən olan Əhməd Yüknəkinin həyat və yaradıcılığına, yaşadığı tarixi dönəmin xüsusiyyətlərinə, onu əhatə edən elmi mühitə və müasirlərinə dair məlumatların kifayət qədər olmaması bu şair-filosof haqqında dolğun təəssürat formalaşmasına imkan vermir. Lakin "Hibatü'l-Həkayik" əsərinin günümüzə çatan nüsxələrində öz əksini tapan hikmətli düşüncələr, nəsihətlər, islam əxlaqına dair fikirlər müəllifin dünyagörüşü, zəngin mənəvi dünyası haqqında təəssürat yaradır.

Şərq mütəfəkkirlərinin bir çoxunda qismət payına düşən məqamlardan biri də onlara məxsus əsərlərin bəzilərinin itirilməsi və ya minilliklər sonra tapılması, dəyərsiz kağız parçaları kimi köhnə kitabxanalarda aşkarlanması, yaxud ən dəyərli əsərlərin avropalı tacirlər tərəfindən satın alınaraq

Avropaya daşınılmasıdır. Halbuki bu əsərlərin hər biri tarixi yaddaşımızda hifz olunan qiymətli sərvət olaraq böyük türk xalqlarının tarixinin, fəlsəfi düşüncəsinin, mədəniyyətinin keçdiyi yolun inikasıdır.

Əhməd Zəki Validi Toqan 1914-cü ildə Buxarada "Qutadqu-Bilik" əsərinin ən qədim əlyazmasını tapmaqla Yusif Balasaqunlu irsini araşdıran alimlərə böyük töhfə vermiş oldu. 1914-cü ildə Orta Asiyanın Karşı şəhərində bir tacirin satdığı dərmanları bükdüyü köhnə kağız parçaları ilə maraqlanan Ə.Z.V Toqan bu kağızların Quranın türk dilinə çevrilmiş nümunəsi olduğunu aşkar etmişdir. Bununla da, türk dünyasında XI-XII əsrlərdə Quran və Sünnəyə dair ədəbiyyatların ərəb dilindən türk dilinə tərcüməsi prosesi haqqında müfəssəl məlumat əldə edildi. Mahmud Kaşqarinin məşhur "Divanü lüğat-it Türk" əsəri 1915-ci ildə İstanbulda türk alimi Əli-Əmiri tərəfindən aşkar edilib elm aləminə təqdim edilməsəydi türkologiya nə qədər böyük bir sərvəti itirmiş olardı. Halbuki bu "Divanü-lüğat-it Türk" ün Məhəmməd ibn Abu-Bəkr ibn Abül-Fəth əs Savi tərəfindən üzü köçürülmüş yeganə qiymətli nüsxəsi idi.

Vaxtilə Qıpçaq xalqının tarixini, dövlətçilik ənənələrinin öyrənilməsində qiymətli mənbə olan XIII-XIV əsrə aid "Kodeks Kumanikus" Krımda missionerlər tərəfindən əldə edilib İtaliyaya aparılmış, hal-hazırda Venesiyada Müqəddəs Mark kilsəsində saxlanılır. Buna bənzər tale yaşamış, öz xalqının tarixinə işıq salacaq neçə-neçə əsər hələ də tədqiqatçısını gözləməkdədir. " *Tarix bəzən bizimlə gizlənqaç oynayır kimi, önəmli şeyləri bir müddətinə gizləyir və bizi bundan xəbərsiz, qaranlıqda saxlayır. Bu önəmli şeylər ortaya çıxdığında onlarsız bacarmırıq və bu qədər uzun zaman onlar olmadan necə yaşamış olduğumuza təəccüblənirik*." [4, s.159].

Əhməd Yüknəki haqqında məlumatların azlığı, onun əsərinin ciddi elmi araşdırmaların obyekti olmaması müəllifin türk-islam mədəniyyəti tarixindəki yeri və rolunun obyektiv dəyərləndirilməsinə mane ola bilməz. Ümidvarıq ki, Əhməd Yüknəkinin "Hibatü'l-Həkayik" əsəri gələcəkdə çoxsaylı ciddi tədqiqatların mövzusu olacaq.

Əhməd Yüknəkinin doğum tarixi və yaşadığı coğrafi məkanla əlaqədar müxtəlif ehtimallar mövcuddur. Məşhur türkoloq, orta əsrlər uyğur, özbək, qazax, tatar, qaraqalpaq dilləri üzrə görkəmli mütəxəssis, Əhməd Yüknəkinin əsərinin dilinin linqvistik və filoloji analizini verən E.N.Nəcib şairin yaşadığı dövrün XII əsrin sonu-XIII əsrin əvvəllərinə təsadüf etdiyini yazır. "XII əsrin sonu-XIII əsrin əvvəllərində Səmərqənd ətrafında və ya Fərqanədə, yaxud Şərqi Türküstanda (S.Malovun ehtimalına əsasən Qutadqu-Bilikdən daha öncə) kor şair Ədib Əhməd Yüknəkinin "Hibatü'l-Həkayik" poeması yaranmışdır [13, s.46]. Qaraxanilər dövründə bəzi dini-ədəbi əsərlər içərisində "Hibatü'l-Həkayik" əsərinin məhz XII əsrdə yazılmasına dair mövqelər üstünlük təşkil edir. Klassik ədəbi türkcədə yazılan bu əsər məzmun və ədəbi çeşid etibarilə "Qutadqu- Bilik" in davamıdır, dil baxımından bəzi fərqliliklər var. Əsər türk-islam mədəniyyəti sahəsində fərdi əxlaq haqqında tamamilə dini bir görüşə görə yazılmış türkcə mənzum bir nəsihətnamədir [9, s.102].

Bəzi müəlliflər onun Səmərqənddə, Fərqanədə, digərləri Türküstanda Yüknək adlı yerdə doğulduğunu iddia edir. XII əsrin məşhur tarixçisi Əbdül Kərim Əs Səmani "Əl-Ənsab" (Geneologiya) adlı əsərində qeyd edirdi ki, bu nisbə "Yüknək" Səmərqənddəndir, Əbu Əhməd Yüknəki bu nisbə ilə məşhurdur. Öz dövrünün görkəmli tarixçisi, hədisşünas Əbu Səid Əbdül Kərim Əs-Səmani (1113-1167) hədis elmi, filologiya, müsəlman hüququ sahəsində əllidən çox əsər yazmış alimdir. Onun əsərləri içərisində "Kitab əl-Əsnab" əsəri ən qiymətli araşdırma hesab olunur. Əsər yazılan zaman müəllif dörd minə yaxın alimlə görüşmüş, topladığı məlumatların dəqiqliyinə, xüsusilə məlumatların silsiləsinə xüsusi məsuliyyətlə yanaşmışdır. Bu baxımdan Əs Səmaninin Əhməd Yüknəki haqqında verdiyi məlumatların dəqiqliyi şübhə doğurmur.

Türk-Qaraxanlı şairi, filosofu Əhməd Yüknəki XI və ya XII əsrdə Səmərqənd ətrafındakı Yüknək qəsəbəsində şair Mahmud Yüknəkinin ailəsində doğulmuş, uşaqlıqdan mükəmməl təhsil almış, ərəb, fars dillərinə yiyələnmiş, islam fəlsəfəsinə, şəriət qanunlarına bələd olmuş, yüksək mənəvi keyfiyyətləri, savadı, xeyirxahlığı və comərdliyi ilə cəmiyyətdə böyük nüfuz qazanmışdır. Təsadüfi deyil ki, inam və iman sahibi olan alimə Ədib Əhməd adı verilmişdir. Bəzi müəlliflər Ədib sözünün onun adı olduğu, digərləri ədəb sahibi olduğu üçün belə dəyərləndirildiyini qeyd edirlər.

"Ədəb" məfhumu islam aləmində insanın daxili mədəniyyətinin, mənəvi-əxlaqi keyfiyyətlərinin göstəricisi olaraq qəbul edilir. Sosio-mədəni fenomen olan ədəb əxlaqi göstərişlərə, ictimai münasibətlərdə etik normalara riayəti vacib şərt hesab edir. Özündə Quran və Sünnə imperativlərini birləşdirən,

islam identikliyinin ifadə forması olan Ədəb humanizm, insaniyyət prinsiplərinə sədaqətin təzahürüdür. İslam mütəfəkkirləri insanın mənəvi aləminin zənginləşməsində, cahillikdən kamilliyə gedən yolun mərhələlərində ədəb qaydalarının rolunu xüsusi vurğulayırdılar. Türk-islam dünyasının qüruru, "öz dövrünün ən böyük riyaziyyatçısı və bütün şərtlər nəzərə alınmaqla bütün zamanların ən görkəmli alimi" olan Əl-Xarəzmi qeyd edirdi ki, "Ədəb müstəqil intellektual sferanı əhatə edərək, dünyanı dərk etmək iqtidarında olan insanın dünyagörüşündə, tərzi-hərəkətlərində özünü biruzə verir. İslam ilahiyyatçısı Əbu İsa ət-Tirmizi (824-892) ədəbin ən gözəl nümunəsinin Məhəmməd peyğəmbərin həyat və davranışları olduğunu yazırdı.

XI əsr məşhur müsəlman ilahiyyatçısı Əbül-Həsən əl Məvardi (972-1058) əqidəyə əsaslanan ədəbi ədəb əl-din və ədəb əl-dünya olaraq iki hissəyə bölürdü. Ədəb elə bir durumdur ki, İslam əxlaqının ən gözəl xüsusiyyətləri orada cəmlənib. Bu durumda olan insanın daxili aləmi nəfsdən təmizlənir və o, ehsan səciyyəsinə yüksəlir. Bu xüsusiyyətlərə malik insan güzgüyə bənzəyir, digərləri ona baxarkən bu güzgüdə doğrunu görür, öz daxili aləmini onunla müqayisə edir, nəticə çıxarmağa çalışırlar [10, s.116]. İslam dininin ədəb qaydaları Əl-Qəzalinin, Əl-Əşərinin, Nəsirəddin Tusinin və digər filosofların əsərlərində öz əksini tapmışdır. Mövlana yazırdı: "Gözlərini aç və Allahın kəlamına başdan-başa bax! Ayə-Ayə bütün Quran ədəb təlimindən ibarətdir."

Əhməd Yüknəkinin mənəvi dünyasına, islam əxlaqının əqidələrə hakim olması yolundakı xidmətlərinə, öz tərzi-hərəkətləri və düşüncələri ilə insanlara örnək olmaq istedadına yüksək qiymət verən müasirlərinin onun "Ədib" adı ilə mükafatlandırması bu mütəfəkkirin adının tarixdə əbədiləşdirilməsini təmin etmişdir.

Əhməd Yüknəki haqqında ilk məlumata Əlişir Nəvainin "Nesayimü'l-mahabbe" adlı əsərində rast gəlinir. Əlişir Nəvai Əhməd Yüknəkinin ailəsi ilə birlikdə öncə Səmərqənddə yaşadığına, daha sonra Bağdada köçərək kiçik bir qəsəbəyə yerləşdiyindən bəhs edir. Anadangəlmə kor olan Əhməd Yüknəki hər gün uzun yol qət edərək Bağdada gəlir, İmam-əl Əzəm-Əbu Hənifə ən Numan İbn Sabit əl Kufinin (699-767) moizələrini dinlərmiş. Əlişir Nəvai yazır: "Rəvayət edildiyinə görə Həzrəti İmama, arasında İmam Məhəmməd və İmam Əbu Yusif də bulunduğu tələbələr arasında olduğunu sormuşlar. İmam Qüdsiyyə Sürruhi: "Hamısı yaxşıdır., fəqət bir məsələ, öyrənmək üçün dörd fərsah yol qət edib gələn və ən arxada oturan o kor Türk ən ağıllısıdır. Və onun Türk dilindəki sözləri, nəsihətləri duyulmuş Türk uluslarının çoxunun da hikmətli sözləri söyləmişdir." Lakin tarixi mənbələrdə məşhur ilahiyyatçı, sünni məzhəblərindən birinin banisi, hənəfi məzhəbinin yaradıcısı olan İmam Əl Əzəmlə Əhməd Yüknəkinin eyni dövrdə yaşaması öz təsdiqini tapmamışdır.

Əhməd Yüknəki Əl-Fərabinin, Yusif Balasaqunlunun, Mahmud Kaşqarinin irsindən bəhrələnərək, türk ədəbiyyat tarixində mühüm yeri və rolu olan fəlsəfi-didaktik bir əsər yazmış görkəmli alimdir.

Əsərin yazılması ilə əlaqədar Əhməd Yüknəki aşağıdakı misralarda öz adını ədəbiləşdirərək yazır:

Adım Ədib Əhməd, sözüm ədəb və öyüddür,
Özüm getsəm də, sözüm burada qalacaq.
Gün gələr, yaz keçər, bu ömür gedər,
Bu bahar, bu son bahar ömrü tükədər.

Araşdırmaçılar bu əsəri Türk-klassik ədəbiyyatının incisi sayır. E.Bertels yazır ki, "bu əsər qədim özbək dilindən klassik özbək dilinə keçid, körpü rolunu oynamışdır. Müəllif bu əsəri yazmaqla ədəbi dilin inkişafına böyük töhfə vermiş oldu".

Son tədqiqatlar sübut edir ki, didaktik məzmunlu bu əsər türklərin islamiyyəti qəbul etdiyi dövrdə Uyğur-Qaraxani, yəni xaqaniyyə dilində yazılmışdır. Əsərin dilini və üslubunu Yusif Balasuqunlu və Mahmud Kaşqari ilə müqayisə edən müəlliflər fərqli mövqelər sərgiləyir. Mehmet Fuad Köprülü qeyd edirdi ki, Qutadqu Bilikdən fərqli olaraq "Hibatü'l-Həkayik" əsərinin dili şairanə deyil, onun dili türkcə sözlərlə moizə və nəsihət dolu şeirlərlə zəngindir [5, s.331]. Əhməd Yüknəki irsinin araşdırmaçısı olan özbək alimi Ş.Kamoliddin hesab edir ki, əsərin yazılmasında məqsəd türk toplumunun sadə, savadsız üzvlərinə islamın mürəkkəb ehkamiyyət sistemini və islam əxlaqını türk dilində çatdırmaq idi. Məhz buna görə müəllif əsərdə çoxsaylı hədislərdən və Quran ayələrindən istifadə etmişdir [11,

s.65]. "Hibatü'l-Həkayik" metaforalarla zəngin mənəvi-əxlaqi, fəlsəfi ideyaların bədii formada əks olunduğu hikmətli nəsihət məzmunlu poemadır.

Əsər əruz vəzninin Türk ədəbiyyatında istifadə edilməyə başladığı dövrdə yazılmış,14 fəsil, 202 beytdən ibarətdir. "Hibatü'l-Həkayik" 40 beytlik bir girişlə başlanır. Bunlardan beşi Allaha münacat, beşi Məhəmməd peyğəmbərə mədhiyyə, beşi dörd səhabəyə, on dördü Əmir Məhəmməd Sipahsalar bəyə həsr olunur. Son altı beytdə isə kitabın yazılması səbəbindən bəhs edilir. Əsərin fəsilləri aşağıdakı qaydada təsnif olunmuşdur. 1) Biliyin faydası və biliksizliyin zərəri; 2) dilin mühafizəsi; 3) dünyanın dönüklüyü; 4) comərdliyin mədhi; 5) xəsisliyin zərəri; 6) təkəbbür və hərislik; 7) kərəm, hilm və digər ali xüsusiyyətlər; 8) zamanın vəfasızlığı haqqında.

Əsərin məzmunundan aydın olur ki, müəllifin məqsədi insanlara islam əxlaqının gözəlliyini, saf mənəviyyatın təbliğini, kamil insan tərbiyəsini önəmini çatdırmaqdır. Əhməd Yüknəki hər bir insanın dünyaya gəlməsini İlahi iradə ilə əlaqələndirir və yazır ki, hər şey Allahın iradəsinə tabedir və ilahi iradə əsasında gerçəkləşir. İnsanlar dərk etməlidir ki, onlar Allah qarşısında bərabərdirlər. Tale, qismət ideyalarına fatalist mövqedən yanaşan müəllif islam ehkamiyyət sisteminin əsas postulatlarından olan İlahi iradə prinsipini belə əsaslandırırdı: Dünya bir karvansaraya bənzər, burada çox qalmaq qeyri-mümkündür. Hər şey öncədən müəyyən olunub. Bu ideyaya qarşı çıxmaq isə böyük günah sayılır.

Öz ictimai-fəlsəfi baxışlarında Əhməd Yüknəki insanların həyatında elmin, biliyin rolunu xüsusi dəyərləndirmişdir. "*Ədəbsiz bilik, odunsuz ocağa bənzəyir, biliksiz ədəb bədənsiz ruh kimidir.*" Alim insan qiymətli dinara, cahil insan saxta pula bənzəyir, dəyəri dərhal məlum olur. İnsan üçün ən böyük səadət onun əqli, zəkasıdır deyən müəllif yazırdı:

"*Cənab Haqq: Elmlə bilinər kainat*
Bilgisizlikdə xeyir yoxdur.
Elmlə bilinər səadət yolu,
Elm bil ki, səadət yolunu tapasan.
Bilikli ər öldü adı ölmədi
Biliksiz sağ ikən adı oldu.
Elm toplayan alim olur
Elmin dadını alim bilir" [1, s.160-170].

Yüksək əxlaqa və mənəviyyata sahib olmanın önəmindən bəhs edən müəllif nifaq, həsəd hissi ilə yaşayan, qəlbində şərin ağır yükünü daşıyan insanlara müraciətlə deyirdi:

O kimsə ki, əzəmətləndi, mən-mən dedi
Onu nə xalq sevməz, nə Xaliq,
Bir millətin aynası comərd kimsədir
Səxavət, şərəf, cəmalı artırar.
Yığmaqla, acgözlü tamahkarın könlü doymaz
O mala quldur, malı ona əfəndi.
Əllərin müçarəki verimli əldir
Alıb, verməyən əl elin uğursuzudur.
Həris kimsə hərisliyini nə zaman buraxar
Ölüb torpaq içinə girib, qeyb olduğu zaman [1, s.176-177].

Şərq mütəfəkkirlərinin ənənələrini davam etdirən, hikmətli nəsihətlərdən bəhrələnən Əhməd Yüknəki saf düşüncələrlə, mərhəmət və şəfqətin, ədalət və sədaqət hissi ilə yaşayan bir toplumun yaranacağını arzulayırdı. Bu imanlı insanların, haqqı tanıyan möminlərin cəmiyyəti olmalı idi. Bəşəriyyətin əbədi arzusu olan bu cəmiyyəti şərq mütəfəkkirləri öz əsərlərində əks etdirirdi. Əl-Fərabi xeyirxah insanların yaşayacağı Fəzilət şəhərinin xəyali ilə yaşayır, Abu-Reyhan Biruni yalnız özü üçün deyil, başqasına qayğısını əsirgəməyən, xalqın mənafeyini hər şeydən üstün tutan, öz nəfsinə qalib gələn insanların tərbiyəsini vacib sayır, insanpərvər, təvazökar, vətənpərvər, nəcib insanlar toplumunun yaranacağına inanırdı. Yusif Balasaqunlu ədalətlə idarə edilən bir cəmiyyətdə biliyin, ağlın xeyirə xidmətini, cəmiyyətdaxili münasibətlərdə ədalət hissinin yüksək dəyərləndirilməsini dövlətin varlığını təmin edən şərt sayırdı. İbn Sina cəmiyyətdə mükəmməl, ali insani münasibətlərin formalaşmasında mühüm

rolu olan alimlərə verilən dəyərin rolunu qeyd edir, öz varlığı, əqli, zəkası, mənəviyyatı ilə örnək olmağa layiq insanlara laqeyd, biganə münasibətin cəmiyyət üçün acınacaqlı sonluğunu göstərirdi. İbn Sina yazırdı ki, "Buxaranı tərk edərkən, mən digər alimlərin, şairlərin, filosofların, memarların, riyaziyyatçıların da bu şəhəri tərk etdiyinin şahidi oldum. Deməli, bu şəhəri fəlakət gözləyir".

Mənəvi dəyərlərin formalaşması, onun sosial dünyagörüşü funksiyası bəşəriyyətin tarix boyu düşündürən problemi olmuş, bu gün də olmaqdadır. Bütün tarixi mərhələlərdə, istər Şərq, istərsə də Qərb filosofları öz əsərlərində ideal cəmiyyət, mükəmməl idarəçilik formaları, cəmiyyət daxili münasibətləri tənzimləyən ideal qanunlar arzusunda olmuşlar. Xüsusilə, şərqdə bütün fəlsəfi sistemlər ilk növbədə insanın mənəvi dünyasını öyrənməyə, cəmiyyətin mənəvi təkamülünə təkan verən şərtləri araşdırmağa çalışmışlar. Mənəvi əxlaqi dəyərləri insan həyatında hər cür çətinliyi dəf etmək üçün mənəvi müqavimət qüvvəsi sayan alimlər kamil insan obrazını təsadüfən mərkəzi problemə çevirməmişlər. Məşhur qırğız yazıçısı, böyük ziyalı, türk dünyasının qüruru olan Çingiz Aytmatov yazırdı ki, "hər bir insanın, cəmiyyətin həyatı müxtəlif xarakterli problemlərin, çətinliklərin, ziddiyyətlərin dəf edilməsi ilə əlaqədardır. Varlıq qanunu və öz daxili aləmini dərk etmək arzusunda olan insan özünə belə bir sual verir: "həyatın mənası nədir?" İnsanla bir doğulan bu sualın konkret cavabı yoxdur.

Əhməd Yüknəki öz əsərində digər mütəfəkkirlər kimi həyatın mənası, dünyanın etibarsızlığı, hadisələrin keçici olması, yalnız insanın yaratdığı elm, sənət, mədəniyyətin əbədi xarakterinə dair dəyərli fikirlər ifadə etmişdir.

Neçə alim vardı, neçə filosof?
Hanı bu gün onların mində biri?
Dünya təbəssüm edər, sonra alın kaş çatar
Bir əli ilə bal tutar, biri ilə zəhər qatar.
Bu gün var, sabah yox bu dünya nə ki?
Mənim demişdin, səndən öncə də mənim demişdilər [1, s.70].

Əsərin fəsillərindən biri dilin etikasına həsr olunmuşdur. Müəllif hesab edir ki, ağıl və düşüncə sahibi olan insan söylədiyi sözlərin məsuliyyətini anlamalı, fikirlərini ifadə edərkən dediyi sözün digərlərinin və özünün ləyaqət və şərəfinin alçaldılmasına, nifaqa, qarşıdurmaya səbəb olmamasına çalışmalıdır. İnsan söylədiyi sözün xoş niyyəti ilə hörmət qazanırsa, səhv, yanlış sözlərlə öz nüfuzunu, hörmətini itirir.

Boş sözü beyhudə söyləmə dilini mühəyyə tut
Bana yetər bir gün bu dil boşluğu.
Yalan söz xəstəlik kimi, doğru söz şəfa,
Bu bir əski sözdür, darb olunmuş məşəldir.
Ağız ziynəti doğru sözdür
Doğru sözlə dilini bəzə
Rəsul (s.a.): insanı atəşə atan
"Dildir" dedi, ağla dil (könül) atəşdən nəfsini qurtar
İnsana nə gəlirsə dilindən gəlir
Bu dildən kimi iyilik, kimi fənalıq bular [1, s.163-165].

Əhməd Yüknəki qeyd edirdi ki, insanda ən şirin və ən acı olan onun dilidir. Sözü demədən öncə onun nəticələri haqqında düşün. Nə qədər insan öz dilinin bəlasına gəlib, dil insanı xoşbəxt də edə bilir, bədbəxt də. Müəllif öz nəsihətləri ilə insanları özü-özünün tərbiyəçisi olmağa səsləyir, xeyirin təntənəsinə çalışaraq ruhunu xilas etməyə çağırır.

Əsərdə fəsillərdən biri kitabın ithaf olunduğu şəxsə həsr olunub. Tarixi mənbələrə görə bu Səmərqənd hakimi Məhəmməd Dad Sipahsalar bəy idi. Əsərdə ona daha çox beyt həsr olunması bəzən mübahisəyə səbəb olan məqama çevrilmişdi. Əhməd Yüknəki əsərində bu barədə yazır: "*Ey dilim, öyüdlər tökdür, elə gözəl sözlər təqdim et ki, mən də onları sultanıma ərməğan edim. Sultanımın öyüdləri ilə süslü bu kitabı oxuyan kişinin üzü açılsın. Onun yaxşılığı, comərdliyi, xeyirxahlığı ölçüsüzdür. Öyüd sözlərinə yabançı və öyüd nədir bilməz insanı belə düşündürər, öyüdü öyrədər. O, ağıl anlayış, zəka, şüur yurdu olan sultan, eyni zamanda elm mədəninin ocağı, ərdəm qaynağıdır.*" [2, s.71].

Şahımın mədhi ilə bəzədim kitabı
Oxuyan kişinin sevinsin canı
Dad Sipahsalar bəy üçün bu kitab
Çıxardım dünyada adı qalsın deyə
Kitabımı görən, eşidən kişi
Şahımı da dua ilə birgə yad etsin deyə [1, s.153].

Əhməd Yüknəkinin öz əsərinə "Hibatül-Həqayik" (Həqiqətlərin Hədiyyəsi) adının verilməsi təsadüf sayıla bilməz. Zəka sahibi olan insanın həqiqət axtarışlarının sonunda əldə etdikləri biliklər gerçək bir hədiyyədir. İnsanın mahiyyəti, intellektual və mənəvi mükəmməlliyə can atmasında özünü büruzə verir. "Həqiqət", "Xeyirxahlıq", "Gözəllik" triadasının bəşəriyyətin xilası olacağına dair çoxsaylı əsərlər yazan filosoflar qeyd edirdilər ki, insan mənəvi axtarışların məskənidir. Əhməd Yüknəki insan təbiətindəki bir-birinə zidd xüsusiyyətlərdən, onların daimi mübarizəsindən bəhs edərək yazırdı ki, insan mənəvi mükəmməlliyə can atması ilə xeyrin təntənəsinə xidmət edə bilər.

X əsrdən başlayaraq türk-islam ədəbiyyatında poema bir janr kimi özünütəsdiq dövrünü yaşamağa başladı. Yazılan əsərlərin başlanğıcında münacat, nəət, mədhiyyə, fəxriyyə kimi hissələrin olması ciddi tələbə çevrildi. Yusif Balasaqunlu, Mahmud Kaşqari, Nizami Gəncəvi, Xəqani Şirvani və digər mütəfəkkirlər öz əsərlərini bu prinsip əsasında tərtib etmişlər.

Əhməd Yüknəki irsinin tarixi-fəlsəfi təhlili. Əhməd Yüknəkinin tarixi-fəlsəfi irsini, etik görüşlərini, subyektiv mövqedən dəyərləndirən bəzi müəlliflər müqayisəli-tarixi metoddan istifadə edərkən yanlışlıqlara yol verirlər. Belə ki, professor Eyüp Akman "Atebetül Hakayik"de epitetlər" adlı məqaləsində Yusif Balasaqunlunun Qutadqu-Bilik əsəri ilə, Əhməd Yüknəkinin əsərini müqayisə edərək, əsərə araşdırmaçıların böyük marağının olmadığını belə əsaslandırır: *"Qutadqu-Bilik" haqqında Türkiyə və Türkiyə xaricində yüzlərlə araşdırmalara rəğmən "Hibatü'l-Həkayik" üzərinə aparılan araşdırmaların sayı olduqda azdır. Bunun bir çox səbəbi ola bilər. Bu səbəblərdən biri də əsərin sadəcə didaktik əsər olduğu, lirizmdən uzaq olduğu, qısaca sənətsal dəyərinin azlığıdır*" [3].

Professor Eyüp Akman Əhməd Yüknəkinin əsəri haqqında verdiyi hökmü əsaslandırmağa çalışaraq əsərdə olan epitetləri "Qutadqu-Bilik", "Dədə Qorqud" dastanındakı epitetlərlə müqayisə etməyə çalışaraq yazır ki, "*Qutadqu-Bilik"də Tanrının mədhinə 33 beyt ayrıldığı halda, Ədib Əhməd isə Tanrını 10 beyt ilə mədh etmişdir. Bu beytlər içərisində Tanrıya həsr etdiyi epitet sayı çox azdır və bunlar Allahın sifatlarıdır. Bu kiçik müqayisə Ədib Əhmədin əsərinin zəifliyini ortaya çıxarır. Digər epitetlər Ədib Əhmədin əsərində Məhəmməd peyğəmbərin mədhinə sadəcə 5 beyt həsr olunub. Kitabı ithaf etdiyi böyük əmir Məhəmməd Dad Sipahsalar bəyə 14 beyt ayrılmışdır. Bu beytlər içərisində bəy ilə ilgili epitet sayının çoxluğu diqqəti çəkməkdədir*" [3, s.6].

Professor E.Akman. M.F.Köprülü və R.R.Aratın Yusif Balasaqunlu ilə Əhməd Yüknəkinin tarixi-fəlsəfi irsi arasında olan oxşar və fərqli cəhətlərə dair düşüncələri ilə həmfikir olduğunu bildirərək yazır: "Əsas mövzumuz olan epitetlərə keçməzdən əvvəl əsərin ədəbi cəhəti haqqında bir neçə kəlmə söyləyək. Fuat Köprülü "Atabatü'l Hakâyık"ın xüsusiyyətləri və Edip Ahmedin sənətkarlıq keyfiyyətləri haqqında belə deyir: "Məsələn, bu əsərdə bir təbiət zövqü əsla mövcud deyil. Sənət tərəqqisindən tamamilə məhrum, quru, məhdud əxlaqi göstərişlərdən ibarət bir mənzumə! Məhz budur "Atabatü'l Hakâyık"ın əsas mahiyyəti fərqləndirici xüsusiyyət!" deyir və Edip Ahmədin şöhrətini sənətkar olmasında deyil, bir vəli (övliya) olaraq xalq arasında qazandığı müqəddəslikdə axtarmaq lazım olduğunu ifadə edir (Köprülü 2009:203).

Reşit Rahmeti Arat da Köprülü ilə eyni fikirdədir. Arat Edip Ahmet və Yusif Has Hâcibi müqayisə edərək Edip Ahmet və onun yaradıcılığı haqqında bunları söyləyir: "Ümumiyyətlə quru, ən təvazökar duyğu parıltılarından uzaq, işini bilən, vəzifəsini bir əxlaq müəllimi kimi məlum bir proqramı sonuna qədər təqrir edən sərt və bir qədər (müəyyən dərəcədə və ya müəyyən dərəcəyə qədər kimi ifadələrdən də istifadə etmək olar) kobud və cansız bir ifadə tərzindən istifadə etməsi nə artıq şəxsi müqayisələrə yer qoyur, nə də oxucularda bunların canlanmasına imkan veriir. Baxmayaraq ki, onların qayə və məqsədləri bir-birinə yaxındır, Yusif və Edip Ahmedi şair və mütəfəkkir kimi müqayisə etmək belə mümkün deyil" (Arat 2006:6)".

Nəzərə almaq lazımdır ki, Yusif Balasaqunlunun "Qutadqu-Bilik" əsəri Qaraxanlı dövlətinin

çiçəkləndiyi bir dövrdə saray mühitinin üstünlüyü şəraitində dövlət idarəçiliyinin forma və məzmunu haqqında yazılmış siyasi traktatdır. Əhməd Yüknəkinin əsəri isə Qaraxanlıların tənəzzülü dövründə yaşanılan iqtisadi-sosial, siyasi böhranın təzahür forması olan mənəvi əxlaqi aşınmaların aradan qaldırılmasına yönəlmiş bir cəhd idi. Fiziki imkanları məhdud bir müdrikin öz müasirlərinə ünvanlamış ümid və inam dolu nəsihətləri insanlarda həyat eşqinin sönməməsinə xidmət edirdi.

Bu xarakterli "nöqsanlar" səbəbindən Eyüp Akman əsərin yarandığı dönəmin, əsərin məzmun və mahiyyətini, müəllifin fəlsəfi-etik görüşlərini, varlıq fəlsəfəsini, həqiqət axtarışlarını, kamil insan tərbiyəsi kimi vacib nəsihətlərini gözardı edir və dəyərsizləşdirməyə çalışır.

Unutmaq olmaz ki, türk xalqlarının tarixi-fəlsəfi irsinin zənginləşməsində mühüm rol oynamış iki görkəmli mütəfəkkirin əsərlərinin bir-biri ilə müqayisəsi, hansının üstün olub-olmamasına dair qeyri-elmi mülahizələr subyektiv mövqeyin ifadəsidir. Hər bir müqayisədə yanlışlıq payı mövcuddur. Digər bir mübahisəli məsələ epitetlərin sayı ilə əlaqədardır. İslam dini göstərişlərində yazılan əsərlərin giriş hissəsində münacatın həcminə, Allaha, peyğəmbərə, 4 xəlifəyə, səhabələrə həsr olunan mədhiyyə epitetlərinin sayı ilə əlaqədar hər hansı bir göstəriş yoxdur və bu müəllifin dini etiqad dərəcəsinə dəlalət etmir. Türk-islam ədəbiyyatı tarixinə aid olan əsərlərdə mövcud olan fərqli yanaşmalar bunu sübut edir. Əhməd Yüknəkinin əsəri islamın türklər arasında yayıldığı dövrdə yazılmış, islam əxlaqi prinsiplərinin əqidələrinə hakim olmasına xidmət göstərmiş, yeni inanc sistemi ilə tanış olan türk xalqlarına İslam dininin özəlliklərini aşılamışdır. Bu kitabı məkan və zaman baxımından dəyərləndirmək daha düzgündür. Əsər haqqında çoxsaylı tədqiqatların olmaması səbəbi isə uyğurşünaslığın araşdırdığı problemlərin yalnız XIX-XX əsrdə tədqiqat obyektinə çerilməsi və bəhs edilən dövrə aid materialların tədricən meydana çıxmasıdır.

Geniş elmi ictimaiyyət Əhməd Yüknəkinin əsərinin əlyazmalarının nüsxələri ilə XX əsrin əvvəlləri ilə tanış olmaq imkanı qazandı. Günümüzə əsərin müxtəlif siyahılarda fərqli adlarla qeyd olunmuş nüxsələri çatıb: "Hibatü'l Hakayik"(Həqiqətin bəxşişi), "Atabetül-Həkayik" (Həqiqətin qapısı), "Qeybətül əl-Hakayik" (Həqiqətin sirri). Müəllifin əsəri necə adlandırılması məsələsi hələ də mübahisə obyektidir. Əsərdə müəllif özü haqqında məlumat versə də, əsərin adı ilə əlaqədar hər hansı bir məlumat yazmamışdır. Lakin bu bir həqiqətdir ki, sonsuz zəka sahibi olan insanın həqiqət axtarışlarının sonunda əldə etdiyi biliklər, gəldiyi qənaətlər, topladığı təcrübə insanın mənəvi və intellektual mükəmməlliyə can atması, həyatın, varlığın mənasını anlamaq yolunda çabası onu səadətə aparan gerçək bir hədiyyədir. "Xeyirxahlıq, Gözəllik, Həqiqət" triadasının bəşəriyyətin xilası olacağını öz əsərlərində tərənnüm edən filosoflar insanı mənəvi axtarışların məskəni sayır, bütün sualların cavabının insanın mənəvi dünyasında olduğunu bəyan edirdilər. "Özünü dərk etmiş insan aləmi dərk edər" prinsipini rəhbər tutan mütəfəkkirlər, yazdıqları nəsihətnamələr, didaktik əsərlər, fəlsəfi-etik traktatlarla insanı mənəvi saflaşmağa çağırırdılar. Əhməd Yüknəkinin əsəri də bu ali məqsədə xidmət edirdi.

"Hibatü'l-Həkayik" əsərinin günümüzə çatan 4 nüsxəsi içərisində ən qədim nüsxə sayılan Səmərqənd nüsxəsi hazırda İstanbulda Ayasofiya kitabxanasında 4012 nömrəli qeydiyyat aktında mühafizə olunur. Nüsxə ilk dəfə müəllim Rüfət Bilgə tərəfindən aşkarlanmışdır. Səmərqənd nüsxəsi 1444-cü ildə Xarəzmli xəttat Zeynalabdin bin Sultanbaxt Cürcani Hüseyn tərəfindən uyğur dilində tərtib edilmişdir. Xəttat özü haqqında bu məlumatı verir: *"Bu nüsxəni Səmərqənd şəhərində Nəbiyü Mustafanın hicərtinin səkkiz yüz qırx səkkizinci ilində Cemaziyelaxırında yazıb süslədim. Yazıçı, Allahın fəzlinin bolluğuna güvənən fəqir, qüsurlu Zeynalabdin bin Sultanbaxt Cürcani Hüseyni. Ya Rəbb, mənə ana-babama yardım et. Buna "Amin" deyən qulları Allah bağışlasın*" [2, s.33].

Orta əsrlərdə əlyazmaların sürətinin köçürülməsi əsasən ərəb əlifbası ilə icra edilirdi. Əsərin nüsxəsinin uyğur dilində köçürülməsi, bəhs edilən dövrdə uyğur dilinin öz təsir gücünü saxladığından və xəttatların orijinalın qorunmasına olan məsuliyyətli münasibətindən xəbər verir. Bu nüsxə dövrümüzə qədər qorunub saxlanılmış, ciddi mühafizə olunmuş ilk nüsxəsidir. İkinci nüsxə -Ayasofiya nüsxəsi I Mahmud tərəfindən tikdirilmiş Ayasofiya məscidinin kitabxanasında aşkar edilmişdir. 4757 nömrəli qeydiyyatda olan bu nüsxə 1480-ci il 30 yanvar tarixində İstanbulda Şahzadə Əbdülrəzzaq Bəxşi tərəfindən qələmə alınmışdır.Toplam 174 səhifədən ibarət olan bu nüsxə uyğur və ərəb hərfləri ilə yazılıb. Nüsxəni elm aləminə tanıdan isə görkəmli türkoloq, Nəcib Asim Yazıqsöz (1861-1935) olmuşdur. Ural-Altay dillərini, Orxon abidələrini, ən əski türk yazısını tədqiq edən "Türk tarixi", "Cəlaləddin Xarəzmşah" kimi çoxsaylı əsərlərin müəllifi olan Nəcib Asim bəy bu nüsxənin tədqiqinə xüsusi

məsuliyyətlə yanaşmış, 1906-cı ildə başladığı araşdırmanı 1916-cı ilə başa çatdıraraq nüsxənin faksimilasi, mətni,tərcüməsi və açıqlaması ilə birgə elmi ictimaiyyətə tədqim etmişdir [6].

2018-ci ildə əsərin ilk nəşrindən keçən 100 il ərzində çoxsaylı araşdırmaçılar Əhməd Yüknəkinin tarixi-mədəni irsinə müraciət edərək türk-islam ədəbiyyatının bu qiymətli nümunəsini tədqiqat obyektinə çevirmişlər. 2018-ci ilin YUNESKO-nun Türkiyə Milli Komisyonu tərəfindən "Hibatü'l-Həkayik" ili elan olunması Türk xalqlarının milli mədəni irisnə olan ehtiramın ifadəsi idi. Bu münasibətlə Yeni Türkiyənin Strateji Araşdırmalar Mərkəzi 2018-ci il 28-30 iyul tarixində "Atabetül-Hakayik və ilk dönəm Türkcə islami əsərlər simpoziumu" adlı Beynəlxalq toplantı keçirdi. Toplantının məqsədi XI-XIV əsrlərdə yazılan Türk xalqlarına məxsus ortaq türk mədəniyyəti nümunələrinin öyrənilməsi, ortaq keçmişdən ortaq gəlcəyə addımlayan türk birliyinin mədəni-tarixi irsinin qorunması üçün alimlərin qüvvələrinin səfərbər edilməsi idi. Ömrü boyu türkçülük ideylarına xidmət edən türk xalqlarının tarixi keçmişini və zəngin mədəniyyətini öyrənilib gəlcəyə ötürülməsinə çalışan Nəcib Asim bəyin Əhməd Yüknəki irsinin öyrənilməsi sahəsindəki xidmətləri əvəzolunmazdır. 1935-ci ildə vəfat edən Nəcib Asim bəyin məzarı üzərində yazılmış "Türk tarixi müəllifi" sözləri qədirbilən türk xalqının bu alimə olan yüksək ehtiramının ifadəsi idi. "Hibatü'l-Həkayik" əsərinin Topqapı nüsxəsi hazırda İstanbulda Topqapı sarayının kitabxanasının 35552 nömrəli qeydiyyat altında mühafizə olunur. Ərəb əlifbası ilə tərtib olunmuş bu nüsxənin nə zaman və kimin tərəfindən üzü köçürüldüyünə dair məlumat yoxdur, lakin nüsxə üzərində Sultan Bəyazidin(1481-1512) möhürü olması nüsxənin tarixinin XV-XVI əsrin əvvəllərinə təsadüf etdiyini sübut edir [13, s.46].

Əsərin nüsxələri arasında Səid Əlinin kitabxanasına aid olan, lakin sonralar itirilmiş bir nüsxənin- Uzun körpü nüsxəsinin olduğuna dair məlumatlar mövcuddur. Ehtimallara əsasən əsər türkcə qeydə alınmışdır. "Hibatü'l-Həkayik" əsərinin bir nüsxəsi də türk xalqına məxsus qiymətli əlyazmaların qürbət taleyini bölüşən Holland nüsxəsidir. 1776-cı ildə Niderlandın Qroningen Universitetinin kitabxanasına universitetin Yunan və Şərq dilləri üzrə professoru Nikolaus Vilhelm Şiladuer (1721-1798) satın aldığı bir əlyazmanı hədiyyə etdi. Bu, "Atabetül Həkayik"in ərəb və türk dili əlibası ilə yazılmış nüsxəsi idi. Hazırda Universitetin HS474 nömrəli qeydiyyat altında qorunan bu nüsxə 1873-cü ildə Avropanını bir çox kitabxanalarının kataloqunda yer aldı.

Son zamanlar Əhməd Yüknəki ilə yanaşı adları hələ elmi dövriyyəyə daxil olmayan çoxsaylı alimlər və şairlər haqqında əsərlərin yazılacağına, Böyük Türk xalqlarının zəngin mədəniyyətini sübut edən tarixi mənbələrin meydana çıxması ilə tarixi ədalətin bərpa olacağına qəti əminik.

"*Mədəniyyət səviyyəsi irəlilədikcə, millətlər tarixi xatirələri, milli mədəniyyət və mənəvi mirası, ədəbiyyat və sənətləri, dastan və xalq hekayələrini, dil, din, əxlaq və məfkurəsini, hüquq, örf və ənənələrini, ən dəyərli əcdad yadigarı olaraq, yeni şərt və metodlara görə işləmək surəti ilə bu xəzinələrdən milli yüksəliş uğrunda istifadə edəcək: tarixi keçmişlə gələcəyi əlaqələndirəcək*" [7, s.64].

Nəticə. Türk-islam mədəniyyətinin formalaşması, bəşər tarixində yalnız bir dini-siyasi proses deyil, həm də insanın mənəvi mahiyyətinin yeni fəlsəfi təfsirinə keçid mərhələsi idi. Bu dövrdə türkdilli xalqların qədim etnik düşüncəsi İslamın universal mənəvi prinsipləri ilə qovuşaraq, yeni bir ruh və ağılın vəhdətinə əsaslanan mədəni-fəlsəfi sintez yaratdı. Əhməd Yüknəki bu sintezin ən dərin təcəssümlərindən biridir. Yüknəkinin fəlsəfəsi, varlığın mənasını idrak və əxlaqın birliyində görür. O, biliyi yalnız rasional idrakın nəticəsi deyil, həm də mənəvi intibahın şərti kimi təqdim edir. Yüknəkinin fikrincə, bilik yalnız ağılı zənginləşdirmir, həm də ruhu saflaşdırır; insanın həqiqi dəyəri onun elmi deyil, bu elmi düzgün, ədalətli və xeyirli məqsədlərlə işlətməsindədir. Yüknəkinin etik-fəlsəfi baxışları göstərir ki, o dövrün islam maarifçiliyi yalnız dini təlimlərlə məhdudlaşmamış, insanın mənəvi və sosial mahiyyətinin bütövlüyünü hədəf alan bir humanist ideya sistemi yaratmışdır. Bu sistemdə elm, iman və əxlaq qarşıdurma deyil, qarşılıqlı tamamlayıcı dəyərlər kimi təqdim olunur. Tarixi-fəlsəfi baxımdan, Əhməd Yüknəkinin irsi türk-islam renessansının əsas ideya dayaqlarından biridir. O, həm Şərqdə humanizmin formalaşmasına, həm də türkdilli xalqların ədəbi-fəlsəfi düşüncəsinin müstəqil istiqamət qazanmasına böyük təsir göstərmişdir. Onun insan, elm və kamillik haqqında ideyaları bir sonrakı mütəfəkkirlərin əsərlərində davam etdirilmiş, bütöv bir mənəvi-fəlsəfi ənənəyə çevrilmişdir.

Beləliklə, Əhməd Yüknəki yaradıcılığı türk-islam mədəniyyətinin ruhani simasını müəyyən edən böyük mərhələ kimi dəyərləndirilə bilər. Onun ideyaları göstərir ki, mənəviyyat, elm və ədalət bir-

birindən ayrılmazdır və bu dəyərlərin vəhdəti yalnız bir mədəniyyətin deyil, bütün bəşəriyyətin mənəvi yüksəlişinin açarıdır.

ƏDƏBİYYAT

1. Edib A. Y. Atebetül-Hakayik / Y.A.Edib. – İstanbul, – 2019. 472 s.
2. Edib Ahmet bin M. Y. Atebetül Hakayik Gerçeklerin eşiği (hazılayan Yaşar Çağbayır) / Y.A.Ahmet Edib. – Ankara: Ötüken neşriyyatı, – 2009. – 71 s.
3. Eyüp A. Atebetül Hakayik' de epitetler // Türk halklarının türkçe ilk yazılı eserleri Uluslararası sempozyumu. – Karakol, Kırğızıstan: – 02-03 Ekim – 2018, – s.9-15.
4. Gülnise C. Qutadqu Bilig Araştırmları / C. Gülnise, M. S. Kafkazyalı – Ankara: – 2016. – 343 s.
5. Mehmet F. Ö. "Atabetül-hakayik"te eğitim bilim və akıl // – Ağrı: Ağrı İbrahim Çeçen Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi. – 2020. № 6/2, – s. 329-338
6. Necib A. Hibatül Hakayik // A. Necib. – İstanbul: – 1918, – 112 s.
7. Osman T. Tarihi akışı içinde. Din ve medeniyyet. / T. Osman. – İstanbul: Boğaziçi yayınları, – 1980. – 228 s.
8. Reşat G. Karahanlı devlet teşkilati / G. Reşat. – İstanbul: Kültür Bakanlığı yayınları. – 1981. – 372 s.
9. Yazıcı. N. İlk Türk-İslam Devletleri tarihi // N.Yazıcı. – Ankara: İlahiyat fakültesi yayınları – 1992. – 153 s.
10. Арифов С.О. Современное исследование классических исламских понятий / С.О. Арифов. – Киев: – 2016. – 201 с.
11. Камолиддин. Ш.. К биографии Ахмада Йугнаки // – Стамбул; тюркология. – 2015. № 71. с.64-79
12. Кляшторный, С.Г. Государства и народы евроазийской степей. От древности к новому времени / С.Г. Кляшторный, Т. И Султанов – Санкт-Петербург: Петербургское востоковедение. – 2009. – 432 с.
13. Наджип. Э. Н. Исследования по истории тюркских языков, XI-XIV вв // Э. Н. Наджип. – Москва: Наука, – 1989. – 281 с.

РАБИЯТ АСЛАНОВА
Бакинский государственный университет,
Кафедра истории философии и культурологии
Доктор философских наук, профессор

ЛИТЕРАТУРНО-ФИЛОСОФСКОЕ НАСЛЕДИЕ АХМЕТА ЮКНЕКИ

Ахмет Юкнеки занимает особое место среди ученых, обогативших тюрко-исламскую культуру ценными литературными произведениями. Его богатое наследие занимает важное место в литературно-философской мысли народов Центральной Азии в постисламский период. Современники Ахмеда Юкнеки, высоко оценивающие его духовный мир, его заслуги на пути верховенства исламской морали над убеждениями, его способность быть примером для людей своими манерами, поступками и мыслями, присвоили ему звание «Мыслитель», обеспечившее увековечивание имени этого мыслителя в истории.

Цель автора – донести до людей красоту исламской морали, пропаганду чистой духовности и важность совершенного человеческого образования. Ахмед Юкнеки неслучайно назвал свое произведение «Хибатуль-хагайик» («Дар истины»). Знания, приобретенные интеллектуальным человеком в конце его поисков истины, являются настоящим даром. В своих социально-философских взглядах Ахмет Юкнеки особенно ценил роль науки и знаний в жизни людей.

Ключевые слова: Тюрко-исламская культура, Хибатул Хакайик, принцип адаб-аль дин и адаб алб- дунья, исламские моральные ценности, философско-этические взгляды.

RABIYYAT ASLANOVA
Baku State University,
Department of History of Philosophy and Cultural Studies
Doctor of Philosophy, Professor

LİTERARY-PHİLOSOPHİCAL HERİTAGE OF AHMET YUKNEKİ

Ahmet Yukneki has a special place among the scholars who enriched Turkish-Islamic culture with valuable literary works. His rich heritage has an important place in the literary and philosophical thinking of Central Asian peoples in the post-Islamic period. Ahmed Yukneki's contemporaries, who highly valued his spiritual world, his merits in the path of the supremacy of Islamic morality over beliefs, his ability to be an example for people with his manners, actions and thoughts, awarded him the title "Thinker", which ensured the perpetuation of the name of this thinker in history.

The author's goal is to convey to people the beauty of Islamic morality, the promotion of pure spirituality and the importance of perfect human education. It is no coincidence that Ahmed Yukneki called his work “Khibatul-khagayik” (“Gift of Truth”). The knowledge acquired by an intellectual person at the end of his search for truth is a real gift. In his social and philosophical views, Ahmet Yukneki especially appreciated the role of science and knowledge in people's lives.

Keywords: Turkish-Islamic culture, Hibatul-Hakayik, principle of adab-al din and adab-al dunya, Islamic moral values, philosophical and moral views.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 may 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: f.e.d. Rəna Mirzəzadə, t.e.d. Anar İsgəndərov.